AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

ABŞ-da AZƏRBAYCAN DİASPORUNUN YARANMASI VƏ İNKİŞAFI (XX ƏSRİN SONU - XXI ƏSRİN ƏVVƏLLƏRİ)

İxtisas: 5503.02 - Vətən tarixi
Elm sahəsi: Tarix

İddiaçı: **İsa Ataxan oğlu Hüseynov**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı - 2022

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan Diasporu" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: tarix elmləri doktoru, professor
Məryam Həsən qızı Seyidbəyli

Rəsmi opponentlər: tarix elmləri doktoru, dosent
Mehman Sirac oğlu Süleymanov

tarix üzrə fəlsəfə doktoru
Yəhya Məmməd oğlu Babanlı

tarix üzrə fəlsəfə doktoru
Raisə Rəşid qızı Cəfərova

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.30 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
Kərim Kərəm oğlu Şükürov

Dissertasiya şurasının elmi katibi: tarix üzrə fəlsəfə doktoru, dosent
İlqar Vahid oğlu Niftəliyev

Elmi seminarın sədri: tarix elmləri doktoru, professor
Mais İsrail oğlu Əmrahov

I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Məlumdur ki, azərbaycanlılar yerli şəraitə, mühitə tez uyğunlaşır və çətinliklərə baxmayaraq, öz həyat şəraitlərini istədikləri kimi qura bilirlər. Onlar Azərbaycan kimi zəngin ölkənin bütün fəaliyyət sahələrində, istər sahibkarlıq, sənətkarlıq, yaradıcılıq, istərsə də kənd təssərüfatı sahələrində mükəmməl iş birliyi qura bilirlər. Lakin başqa xalqlarla müqayisədə soydaşlarımız müəyyən səbəblərdən dövlətin ictimai-siyasi həyatında nisbətən məhdud çərçivədə iştirak edirlər. Xalqın böyük əksəriyyəti, əsasən, daha çox elm-təhsil sahələrində çalışmağa yüksək dəyər verir. Yüksək elmi təfəkkürə malik Azərbaycan xalqı hər zaman elmin müxtəlif sahələrində sanballı nəticələr əldə edə bilmişdir. Bu xüsusiyyəti təkcə ölkəmizdə deyil, müəyyən mənada dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizə də aid etmək mümkündür. Bu mənada hazırda yer üzünün, demək olar ki, bütün nöqtələrinə səpələnmiş soydaşlarımızın həyat tərzi və məşğuliyyəti, milli-mənəvi dəyərlərimizə, dövlətçiliyimizə bağlılığı və bu sahədəki xidmətləri haqqında daha dolğun təsəvvür əldə etmək üçün onların diaspor fəaliyyətinin araşdırmasının mühüm əhəmiyyəti vardır.

Məlumdur ki, hazırda Azərbaycan diasporu bütün ölkələrdə geniş fəaliyyət göstərir. Təbii ki, belə qabaqcıl ölkələrdən biri də Amerika Birləşmiş Ştatlarıdır. Azərbaycan Xalq Cümhuriyyətinin 1920-ci ildə süqutundan sonra xarici ölkələrə pərakəndə şəkildə səpələnmiş soydaşlarımızın gördüyü işləri Azərbaycan diasporu və lobbisinin gərgin fəaliyyətinin bünövrəsini təşkil edən ilk siyasi fəaliyyət hesab etmək olar. Daha dəqiq desək, 1920-ci ilin əvvəlində San-Remoda, sonra 1922-ci ildə Genuya və Londonda Azərbaycanın milli-siyasi mənafeyini müdafiə etmək üçün Lozanna elmi konfranslarında iştirak edən azərbaycanlılar lobbiçiliyin əsasını qoymuşlar. ABŞ-da Amerika Azərbaycan Cəmiyyətinin təsis edilməsi məsələsini isə 1956-cı ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi xidmət orqanlarından biri olan "Əksinqilab ilə mübarizə təşkilatı"nın rəisi işləmiş Nağı bəy Şeyxzamanlının oğlu Saleh bəy Şeyxzamanlı gündəmə gətirmişdi.

Amerikada yaşayan və müxtəlif sahələrdə öz milli dəyərlərini qoruyub saxlayan soydaşlarımızın fəallığı XX əsrin sonlarından daha da aktivləşdi. Buna səbəb kimi Azərbaycanın digər zəngin sərvətlərindən olan neft ehtiyatlarının olması göstərilirdi ki, bu da dünyanın bir çox inkişaf etmiş dövlətlərinin, daha çox Qərbin və ABŞ-ın diqqətini çəkə bilmişdir. Azərbaycanın geosiyasi cəhətdən nüfuzunun yüksəlməsinə əsas təsir edən vasitələrdən biri və ən əhəmiyyətlisi Xəzər nefti, onun keyfiyyəti və miqdarı idi. Belə ki, 1994-ci ilin sentyabrın 20-də Bakı şəhərində dünyanın 11 iri neft şirkəti ilə imzalanmış "Əsrin müqaviləsi" müqaviləsi Xəzər dənizinin Azərbaycana məxsus hissəsində "Günəşli", "Azəri", "Çıraq" neft yataqlarından hasil olunan neftin düzgün paylanması və ondan gələn gəlirlərin dövlətin neft sahəsində fəaliyyət göstərən müəssisələrinin qabaqcıl texnologiyalarla müasirləşdirməsi prosesinə təkan vermişdir. Azərbaycan dövlətinin başqa ölkələrdə olduğu kimi, Amerika Birləşmiş Ştatlarında da nüfuzunun artmasına səbəb olaraq respublikamızın müstəqillik əldə etməsi nailiyyətini göstərmək olar. Bu xüsusda, qeyd etmək lazımdır ki, müstəqillik bir çox ölkələrdə fəailiyyətdə olan Azərbaycan diasporunun fəallaşmasında və lobbiçilik fəaliyyətinə qoşulmasında mühüm hadisə olmuşdur.

Amerika Birləşmiş Ştatlarında iş birlikləri quranların, təhsil alanların və ya sadəcə olaraq yaşayan azərbaycanlıların sayını hesablamaq çətindir, çünki Azərbaycan diasporunun üzvləri arasında İran, Türkiyə və Rusiya vətəndaşları vardır. Hazırda azərbaycanlıların daha çox olduğu Filadelfiya, Mayami, Vaşinqton və hətta Nyu York şəhərlərində Azərbaycan diaspor təşkilatları fəaliyyət göstərir. Ayrı-ayrı şəhərlərdə yaşayan azərbaycanlılar yalnız hansısa hüquqi və ya konsulluq əməliyyatına ehtiyac olduqda səfirliyə müraciət edir və tam olaraq problemlərinin həllindən razı qalırlar. Bəlkə də, elə bu səbəbdən və ya problemlərinin həllini azərbaycanlılar özləri həll edə bildiklərindən onlar konsulluqlara müraciət etmirlər. Yəni tam olaraq ABŞ-da yaşayan azərbaycanlıların qeydiyyatını aparmaq mümkün olmur və ya həmin ölkənin marağında deyil ki, bu sayı dəqiqləşdirsin. Bu səbəbdən də, Amerika Birləşmiş Ştatlarında yaşayan azərbaycanlıların təşkilatlanması digər klassik diasporlardan olan erməni, yəhudi,

yunan icmaları ilə müqayisədə tam olaraq fərqlənsə də, Azərbaycan icmasının inkişaf dinamikasını və milli keyfiyyətlərini düzgün çatdıra bilməsi təqdirəlayiqdir. Azərbaycan diasporunun son otuz ildə gördüyü işlər hətta ABŞ-da fəaliyyət göstərən başqa etnik diaspor təşkilatlarının 50-60 ilə keçdiyi yolu qabaqlaya bilmişdir. Belə əsaslı irəliliyəşə malik olan Azərbaycan icması əldə etdiyi nailiyyətlərinə görə Amerikanın həm ictimai, həm siyasi həyatında formalaşmış bir səsə çevrilmişdir. Azərbaycan-Amerika Şurası, diaspor təşkilatı, eləcə də ABŞ-da yaşayan azərbaycanlılar şəbəkəsi digərlərinə nisbətən yeni olsa da, soydaşlarımızın təşkilatlanması bu ölkədə, demək olar ki, diaspor fəaliyyətinə yeni nəfəs gətirmiş oldu. Yəni günümüzdə hələlik həllini tapmayan problemlərdən olan Qarabağ mövsuzu da yeni təşkilatların gündəliyində önəmli yer tutur və digər təşkilatların da bu haqda məlumatlardırılması işi aparılır.

Bu da danılmaz bir həqiqətdir ki, ümummilli liderimiz Heydər Əliyev Azərbaycandan kənarda yaşayan milyonlarla soydaşımızın vahid bir amal ətrafında birləşdirilməsi istiqamətində çox böyük işlər aparmış və bu birliyin təməlini qoymuşdur. Demək olar ki, yaşadıqları ölkələrdə təşkilatlanmış azərbaycanlılar, müxtəlif problemlərlə qarşılaşsalar da, öz milli dəyərlənini, adət-ənənələrini qoruyub saxlaya bilirlər. Son zamanlarda xaricdə olan həmvətənlərimiz yeni tarixi durumun tələbinə müvafiq olaraq milli-mədəni formada təşkilatlanmağa başlayıblar. Ölkə diasporu Rusiya, ABŞ, Türkiyə, Almaniya, Fransa olaraq dövlətlərdə daha çoxsaylı və aktivdir.[1] Ötən dövrdə ABŞ-da Azərbaycan diaspor üzvləri tərəfindən Ağ Evin rəsmi səhifəsində "Biz xalqıq" bölməsində Azərbaycan Respublikasının ərazisinin 20 faizinin Erməni seperatçıları tərəfindən 30 ildən uzun sürən işğalçılıq siyasətinin pislənilməsi, əzəli torpaqlarımızın xalqımıza məxsus olması, işğal olunmuş torpaqlarımızda tarixi abidələrimizin dağıdılması, regionun ekoloji vəziyyətinin bu qüvvələr tərəfindən qəsdən çirkləndirilməsinin qarşısının alınmasına, eləcədə Xocalı qətliamı və onun qurbanlarının anılmasına yönəlmiş petisiyalar yerləşdirilmişdir.

[1] Hüseynov, İ. A. Azərbaycanın ABŞ-da tanıdılması: maraq qrupları və diaspor // - Bakı: Geostrategiya, -2016. №4, - s.40-43.

Dünya azərbaycanlıların, xüsusilədə ABŞ-da yaşayan həmvətənlilərimizin fəallığı ilə petisiyalar qəbul olunmuş, düşmən ölkənin doğma torpaqlarımızda apardığı aqressiv hərəkətlərinin niyyəti dünya xalqlarına, eləcə də amerika xalqının diqqətinə çatdırılaraq erməni xalqının məkrli siyasəti ifşa edilmişdir.

Elmi-tədqiqat işinin aktuallığı müasir Azərbaycan cəmiyyətinin dünya xalqları birliyinə sıx inteqrasiyası ilə əlaqəli iqtisadi, siyasi, ictimai və mədəni proseslərin araşdırılması və əldə olunan nəticələr əsasında əsaslı inkişafa nail olmaq yollarının göstərilməsidir.

ABŞ-da Azərbaycan diasporunun yaranması, inkişafı (XX əsrin sonu - XXI əsrin əvvəlləri) mövzusunun aktuallığının əsas göstəricilərindən biri də hər hansı dövlətin, eləcə də Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqaməti kimi, diaspor amilinin nəzərə alınması, bu məsələni politoloji əsasları və əhəmiyyətidir. Diaspor fenomeni məsələsinin tədqiq edilməsinin əhəmiyyəti, onun elmi əsaslara söykənərək təhlil olunması, yeni strateji və taktiki meyarlar kəsb etməsi çox maraqlı faktlara söykənir. Bu məsələnin milli özünüdərk prosesində getdikcə daha geniş sahələri əhatə edə bilməsi, daxili və xarici siyasətdə və ya bir çox elm sahələrində, eləcə də fəlsəfə, tarix, beynəlxalq hüquq, etnopolitologiya, beynəlxalq münasibətlər, politologiyada araşdırma obyektinə çevrilməsi ilə əlaqədardır.

Azərbaycan Respublikasının digər önəmli qanunları kimi, "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında", "Azərbaycan diasporu", eləcə də "Xaricdə yaşayan azərbaycanlılar" haqqında qəbul edilmiş hüquqi aktlar, dünya azərbaycanlılarına təşkilatlanmaları üçün çox geniş imkanlar açmaqdadır. İmzalanmış bu qanunların əhatə dairəsi xaricdə yaşayan vətəndaşlarımızla yanaşı, vaxtilə müxtəlif səbəblərdən Azərbaycan SSR-ni tərk etmiş, eləcə də yaşadıqları ölkədə doğulan həmin ölkələrin vətəndaşları olan soydaşlarımızın övladlarını əhatə edir. Hətta özünü müxtəlif oxşar cəhətlərə görə mənşəcə azərbaycanlı sayan şəxslərə də aid olunur. Bu qanunlarla, diaspor quruculuğu, təşkilatların daha sistemli fəaliyyət göstərməsi, onların rastlaşdığı çətinliklərin əsaslı şəkildə həlli istiqamətində müvafiq işlərin görülməsi, vətəndən kənarda yaşayan soydaşlarımızla mütəmadi əlaqələrin yaradılması nəzərdə

tutulur. Müxtəlif vaxtlarda mütəmadi olaraq əlaqələrin yaradılmasına baxmayaraq, dövlət başçısının həmin ölkələrdə dövlət əhəmiyyətli görüşləri zamanı da bu məsələlər nəzərdən keçirilir. Hətta dövlət rəhbəri ölkəyə səfər edən tərəfdaş ölkələrin rəsmi şəxsləri, eləcə də həmin ölkələrin diaspor təşkilatlarının rəhbərləri ilə görüşlərində Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə əlverişli imkanların verilməsini daim dilə gətirmiş və bu istiqamətdə müvafiq nailiyyətlərin əldə edilməsinə müvəffəq olmuşdur.

Dissertasiya işinin ayrı-ayrı fəsil və yarımfəsillərində azərbaycanlıların miqrasiya tarixi və diaspor fəaliyyəti məsələləri elmi olaraq tədqiq edilir. Eyni zamanda tədqiqat işində ABŞ-da etnik lobbizmin formalaşması və Azərbaycanın xarici siyasətinin əsas problemlərindən olan diaspor məsələsi və fəaliyyət strategiyası da araşdırılır.

Qeyd etmək olar ki, Azərbaycandan kənarda məskunlaşmış həmvətənlərimizin təsis etdikləri təşkilatlar "Azərbaycan diasporu"nun mövqeyinin yaşadıqları ölkələrdə möhkəmləndirməyə çalışırlar. Azərbaycan diasporunun formalaşdırılması sahəsində əldə edilən bütün dəyərli nailiyyətlər və ya nöqsanlar Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı, onun təyin etdiyi tərəqqi strategiyasını əsaslı şəkildə təkmilləşdirən ölkə başçısı İlham Əliyev tərəfindən daim diqqət mərkəzində saxlanılır. Bu da xarici ölkələrdə yaşayan həmvətənlərimizə sanki bir mənəvi dayaq olmaqla, hətta diaspor quruculuğu işinə də böyük təkan verməkdədir.

Qoyulan problemin aktuallığının dəqiq səbəblərinin xüsusi izahı vardır. Belə ki, Amerika Birləşmiş Ştatların sosial-siyasi həyatı haqqında tam elmi araşdırma aparılmamış, Amerika seçkilərində Azərbaycan diasporunun fəaliyyəti barədə yalnız qısa informasiyalar verilmişdir. Demək olar ki, bu məsələ haqqında tam olaraq, əsaslı şəkildə heç bir dissertasiya işi yazılmamış, eləcə də elmi-populyar araşdırılma aparılmamışdır. Bundan başqa Amerika qanunvericiliyi ilə sıx təmas yaratmaq, Amerika media aləmində Azərbaycan həqiqətlərini, mədəniyyətini, elmi potensialını göstərə bilən lobbi sisteminin tarixi və bu günü barədə elmi iş araya-ərsəyə gətirən olmamışdır. Göstərilən səbəbləri nəzərə alaraq, biz bu dissertasiya işində daha əhatəli araşdırma aparmaq niyyətindəyik.

Xaricdə yaşayan həmvətənlərimiz, onların problemləri, diaspor, lobbiçilik mövzusu müxtəlif dövrlərin tədqiqatçıların elmi əsərlərində öz əksini tapmışdır. Müxtəlif səbəblər üzündən xarici ölkələrdə məskunlaşan və sonralar icma formasında formalaşan, təqribi diaspora dönən insanlar haqqında bir çox millətlərin şifahi və yazılı formlarında informasiyaya rast gəlinir. Nəzərə çatdırmaq vacibdir ki, ölkədə mövzunun tarixi-siyasi baxımdan əsas əhəmiyyət daşımasına baxmayaraq, məhz dünyanın qüdrətli dövləti olan Amerika Birləşmiş Ştatlarında Azərbaycan diasporunun miqrasiyası, diasporun formalaşması, təşkilatlanması, ictimai-siyasi fəaliyyətinə həsr olunan elmi-tədqiqat işləri geniş şəkildə işlənməyibdir.

Dissertasiya işində ABŞ-da Azərbaycan diasporu və lobbi termininin müxtəlif məqamlarda istifadə edildiyi kitablarla yanaşı, problemin müasir anlamının təhlilində xarici ölkələrdə çalışan tədqiqatçılardan Bauder, H., Perlmutter, P.,Ronald, J.H., Bauböck, R. [2] və s. əsərləri ilə yanaşı MDB məkanında çalışan tədqiqatçılardan T.Poloskova, N. Şulqa, S.A. Suşinski, Y.U.Platanov və digərlərinin [3] tədqiqatları ilk dəfə dövriyyəyə daxil edilmişdir.

Bu sahədə elmi mənbələrin və informasiyanın qıtlığı da mövzunun təhlilini zəruri edir. Diaspor nəzəriyyəsi, Azərbaycan diasporunun tarixi, formalaşması, təşkili strukturunu, lobbizm, azərbaycanlıların dünyaya yayılma coğrafiyası və digər məsələlərin

---

[2] Bauder, H. Labor Movement: How Migration Regulates Labor Markets / H. Bauder. –Oxford: Oxford University Press, 2006. -288p, Perlmutter, P. The dynamics of American ethnic, religious, and racial group life: an interdisciplinary overview / P.Perlmutter. –New York: Greenwood Publishing Group. -1996.-345p, Ronald J.H. Lobbying in America / J. H. Ronald, B.M. Bryson -Salt Lake City: ABC-CLIO, -2009. -201p, Bauböck, R. “Thist “Diaspora and Transnationalism: Concepts, Theories and Method”s”. IMISCOE Research / R. Bauböck. – Amsterdam: Amsterdam University Press, -2010. -387 p.

[3] Полоскова, Т.В. Диаспоры в систем международный связей: /автореферат доктора политических наук/ -Москва, 1998. -26 с., Шульга, Н. Формирование политики национального государства по отношению к диаспоре / Н. Шульга. -Москва: Наука, -2002. -176 с., Сушинский, С.А. Лоббирование от «А» до «Я» / С.А. Сушинский. -Ростов-на Дану: Феникс, -2015.- 269 с., Платонов, Ю.П. Этнический фактор. Геополитика психология / Ю.П. Платонов. -Санкт-Петербург: Речь, -2002. -520 с.

tədqiq edildiyi işlərdən R.Mehdiyev, V.Arzumanlı, V.Həbiboğlu, M.Seyidbəyli, İsmayılov, İ., Z.Əliyev[4] və başqalarının əsərləri və tədqiqatçıları dissertasiyanın mənbəşünaslıq bazasında faydalı rol oynamışdır.

Azərbaycanda da mövzu ilə bağlı elmi-tədqiqat proseslərinin aparılması XX əsrin 90-cı illərindən sonraya düşür. Bu illər ərzində KİV-də çoxsaylı məqalələr, araşdırmalar, müsahibələr və xarici ölkələrdən məktublar dərc edilməsinə baxmayaraq bu mövzuya dair xüsusi elmi iş araşdırılmadığından mövzunun nə dərəcədə əhəmiyyətli olması və onun məhz siyasi aspektdə təhlilinə ehtiyac olduğunu bir daha göstərir.

Akademik Ramiz Mehdiyevin "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" monoqrafiyası böyük maraq doğurur.[5] Kitabda postsovet məkanında milli sahədə baş verən hadisələrlə əlaqədar olaraq millətlərarası münasibətlərin nəzəriyyə və siyasət məsələləri nəzərdən keçirilmişdir. Akademik haqlı olaraq qeyd edir ki, Azərbaycan dövləti diaspor quruculuğu prosesinə xüsusi diqqətlə yanaşır və bu ənənənin əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu və hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyini yazır. Qarabağ probleminin həllinə dair səylər fəallaşdırılmalı; xarici siyasi fəaliyyətin xarakteri dəyişməli; ölkənin mənafeləri daim lobbiçilik, diaspor quruculuğu və ümummilli məsələlər ətrafında birləşdirilməlidir" fikirlərin qeyd edən R. Mehdiyev qənaətində haqlıdır. Çünki, müstəqillik qazanan və keçid

[4] Mehdiyev, R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: [2 cilddə] / R.Ə. Mehdiyev. -Bakı: XIX YNE, -c.1. -2006. -671 s., Arzumanlı, V. Azərbaycan diasporu: reallıqlar, qayğılar, problemlər / V.Arzumanlı. -Bakı: Qartal nəşriyyatı, -2001. - 800 s., Həbiboğlu, V. Heydər Əliyev və Azərbaycan diasporu / V. Həbiboğlu -Bakı: Qartal, -2001. -358 s, Сеидбейли, М.Г. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития 1988-2007 гг. / М.Г. Сеидбейли. -Баку, 2009. -396 с., İsmayılov, İ. Dünya azərbaycanlıları XX əsrdə (müxtəsər oçerk) / İ. İsmayılov. -Bakı: DHA mətbəəsi, -1997. -270 s., Əliyev, Z.B. Dünya diasporları / Z.B. Əliyev. -Bakı: Qismət nəşriyyatı, -2005. - 349 s.

[5] Mehdiyev, R. Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə: [2 cilddə] / R.Ə. Mehdiyev. -Bakı: XIX YNE, -c.1. -2006. -671 s.

dövrünü yaşayan ölkələrin xarici siyasətinin uğurla həyata keçirilməsində qeyd olunan lobbi və diaspor amilinin rolu böyükdür.

Yaqub Mahmudov və Kərim Şükürovun "Qarabağ real tarix, faktlar, sənədlər" kitabı isə Qarabağ tarixini öyrənmək baxımından olduqca əhəmiyyətlidir.[6] Kitabda Qarabağın tarixi, ərazisi və sərhədləri, o cümlədən ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqrım haqqında mühüm faktlar və sənədlər öz əksini tapmışdır. Bundan başqa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsəsi və onun həll olunma istiqamətində atılan addımlardan bəhs edilmişdir.

Professor, Filologiya elmləri doktoru, Arzumanlı Vaqifin "Azərbaycan diasporu: reallıqlar, qayğılar, problemlər" kitabı Azərbaycan diasporunun tarixinin dərin köklərə malik olmadığını və bu sahədə məqsədyönlü və sistemli işin aparılmasına ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra başlandığını bildirir.[7]

Azərbaycanın ABŞ-dakı ilk səfiri olan Hafiz Paşayevin "Bir səfirin manifesti" əsəri ABŞ-Azərbaycan münasibətlərinin müxtəlif sferalarda inkişaf dinamikasının öyrənilməsi baxımından əhəmiyyətlidir.[8] Əsərlərin elmi məziyyətini gücləndirən müəllifin həm də hadisələrin bilavasitə iştirakçısı və icraedicilər sırasına daxil olmasıdır.

Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Əliyev Z. "Dünya diasporları" kitabında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu gün həmin siyasəti uğurla davam etdirdiyinə diqqəti çəkərək əsərdə bu istiqamətlərə öz münasibətini açıqlamışdır.[9] Həqiqətən də Ümumilli Lider Heydər Əliyev Azərbaycan diasporunun fəaliyyət konsepsiyasının və strategiyasının memarıdır. Məhz bunu nəzərə alaraq dissertasiyada lobbiçilik və diaspor

[6] Mahmudov, Y. Qarabağ real tarix, faktlar, sənədlər / Y. Mahmudov, K.Şükürov. -Bakı:Təhsil, -2005. -377 s.

[7] Arzumanlı, V. Azərbaycan diasporu: reallıqlar, qayğılar, problemlər / V.Arzumanlı. -Bakı: Qartal nəşriyyatı, -2001. - 800 s.

[8] Paşayev, H.M. Bir səfirin manifesti / H.M. Paşayev. -Bakı: Şərq-Qərb,- 2007. - 248 s.

[9] Əliyev, Z.B. Türkdilli Xalqların Diasporları / Z.B. Əliyev. -Bakı: Adiloğlu nəşriyyatı,- 2009. - 296 s.

problemləri Ulu Öndər Heydər Əliyevin fəaliyyəti kontekstində təhlil olunur.

Dissertasiyada istinad edilən əsərlərdən biri də AMEA A.A.Bakıxanov adına İnstitutun "Azərbaycan diasporu" şöbəsinin müdiri, t.ü.e.d. M.H.Seyidbəylinin elmi redaktorluğu ilə buraxılmış "Azərbaycan diasporu: tarix və nəzəriyyə" adlı kitabı milli diasporun problemlərinin araşdırılmasında layiqli töhfədir.[10] Bu monoqrafiyada diasporumuzun fəaliyyəti, problemləri, onların miqrasiya səbəbləri, diaspor təşkilatlarının siyahısı, Azərbaycan Respublikasının Prezidenti, Ulu Öndər Heydər Əliyevin siyasəti, lobbiçilik və s. məsələlər araşdırmaya cəlb olunmuşdur. Tədqiqatçının ardıcıl araşdırmaları və təhlilləri, xüsusilə müqayisəli araşdırmaları əhəmiyyətli sayıla bilər.

Tarix elmləri doktoru Seyidbəyli Məryəmin "Rusiyada Azərbaycan diasporu: təşəkkülü və inkişafının xüsusiyyətləri və tendensiyaları" adlı tədqiqat əsəri tarixi və müasir proseslər kontekstində yazılmış və burada araşdırılan problemin bəzi aspektlərinə toxunulmuş, dəyərli fikirlər söylənilmişdir.[11] Burada da apardığımız tədqiqatın məqsəd və vəzifələri tam təfsilatı ilə araşdırmaya cəlb olunmasa da mövzunun gündəmə gətirilməsi baxımından onu əhəmiyyətli sayırıq.

V.Həbiboğlunun "Heydər Əliyev və Azərbaycan diasporu" kitabında uzun illər Azərbaycan xalqının rifahı yolunda yorulmadan çalışan Heydər Əliyevin milli diasporun inkişafında rolu və müxtəlif ölkələrdə soydaşlarımızla görüşü və s. məsələlər öz əksini tapmışdır. Müəllif kitabda haqlı olaraq qeyd edir ki, Azərbaycanda diaspor quruculuğu sahəsində məqsədyönlü işin aparılması məhz Heydər Əliyevin hakimiyyətə gəlişi ilə bağlıdır.[12] Müəllif "Azərbaycan diasporunun yeni mərhələdə inkişafının istiqamətləri" və

[10] Azərbaycan diasporu: tarix və nəzəriyyə // red. Y.Mahmudov, M.Seyidbəyli. -Bakı: Astroliqraf LTD, -2005. -92 s.

[11] Сеидбейли, М.Г. Азербайджанская диаспора в России: особенности и тенденции формирования и развития 1988-2007 гг. / М.Г. Сеидбейли. -Баку, 2009. -396 с.

[12] Həbiboğlu, V. Heydər Əliyev və Azərbaycan diasporu / V. Həbiboğlu -Bakı: Qartal, -2001. -358 s., s.152.

“Azərbaycan diasporu müasir mərhələdə” adlı məqalələrində isə ölkə Prezidenti İlham Əliyevin bütün sahələrdə olduğu kimi, məhz diaspor quruculuğu sahəsində də həmin siyasi xəttin layiqli davamçısı kimi qiymətləndirmişdir.[13]

Diaspor quruculuğunun öyrənilməsi və istiqamətləndirilməsi sahəsində Türkiyə Respublikasında da müəyyən elmi tədqiqatlar aparılmışdır.

A.Tayyar “Amerikada siyasi quruluş, lobbilər və xarici siyasət” əsərində lobbiçilk strategiyasına toxunur və diasporları etnik lobbiçiliyin qurulmasında vacib element sayır.[14]

N.Uslu “Türk- Amerika əlaqələri” əsərində xarici siyasət kursunun yürüdülməsi zamanı diasporların imkanlarından istifadənin zəruriliyindən yazır. Biz də müəllifin “bu gün müasir dünyada xarici siyasətin uğurlu alınması üçün mütləq diasporlar yerli siyasi proseslərdə fəal olmalıdırlar” fikri ilə razıyıq.[15] Bu gün dünya praktikasında bəzi millətlərə məxsus olan diaspor və lobbilərin fəaliyyət göstərdikləri və yaşadıqları ölkələrin siyasətinə təsir imkanına malik olması və bu təsirdən icmalara və öz milli dövlətlərinin maraqları naminə istifadə etməsi artıq danılmaz bir faktdır.

Dissertasiyanın tədqiqi zamanı Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin nəşrlərindən, illik hesabat sənədlərindən, AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun “Azərbaycan diasporu” şöbəsi əməkdaşlarının elmi məqalələri və nəşrləri, ABŞ-ın Azərbaycan Respublikasında səfirliyinin kitabxanasından, arxiv materiallarından, Xarici İşlər Nazirliyinin hesabat və nəşrlərindən yararlanılıb.

Göründüyü kimi problem qeyd edilən aspektlərdə öyrənilsə də, bütövlükdə bu mövzu Azərbaycan siyasi elmində geniş təhlil

---

[13] Həbiboğlu, V. Azərbaycan diasporu müasir mərhələdə // Respublika. -2005, 4 yanvar. -s.5; Həbiboğlu, V. Azərbaycan diasporunun yeni mərhələdə inkişafının istiqamətləri // Respublika. -2007, 2 yanvar. -s.4.

[14] Tayyar, A. Amerikanın siyasi yapısı: Lobiler ve Diş politika / A.Tayyar. – İstanbul: AlfaYay, -2009. -327s.

[15] Uslu, N. Türk-Amerikan İlişkileri / N. Uslu. -Ankara: 21. Yüzyıl Yayınları, -2000. -101 s.

olunmamış, yalnız müəyyən məqalə və kitablarda müəyyən dərəcədə öyrənilmişdir. Azərbaycan tədqiqatçıları tərəfindən problemin hərtərəfli araşdırılmadığını nəzərə alsaq, fikrimizcə təqdim edilən dissertasiya işinin respublikada tarix elm sahəsində bu problemin kompleks şəkildə tədqiqinə həsr olunan ilk işlərdən biri olduğunu qeyd edə bilərik. Son dövrlərdə diaspor quruculuğu və onun formalaşdırılması problemlərinə aid respublikada bir sıra dövlət tədbirləri həyata keçirilmişdir ki, dissertasiyada həmin dövlət sənədlərindən geniş istifadə olunmuşdur.

Tədqiqat işinin obyekti və predmeti. Elmi araşdırmanın əsas tədqiqat obyekti kimi, Azərbaycan diasporunun Amerika Birləşmiş Ştatlarında necə yaradılması, inkişafı predmeti araşdırılır, diasporun formalaşma tarixininin xüsusiyyətləri, lobbi quruculuğunun mexanizmi və inkişafı tendensiyaları bir predmet olaraq tədqiq edilir.

Tədqiqat işinin məqsədi və vəzifələri. Elmi tədqiqat işinin yerinə yetirilməsindəki **əsas məqsəd** Azərbaycan diasporunun ABŞ-da təşkilatlanması fəaliyyətini müəyyənləşdirmək, Azərbaycan – Amerika münasibətlərində bu təşkilatın gördüyü işlərin səmərəsini vurğulamaqdır. Eyni zamanda Azərbaycan xalqının ən ağrılı yeri olan Dağlıq Qarabağ gerçəkliklərinin Amerika ictimaiyyətində düzgün şəkildə çatdırılmasına nail olmaqdır. Bu məsələnin əsasını təşkil edən dövlət-diaspor münasibətlərinin, eləcə də diaspor siyasətini lazımı səviyyədə təhlil etmək və inkişaf perespektivlərini müəyyənləşdirməkdən ibarətdir. Bununla əlaqədar elmi araşdırmadan əldə olunan və tədqiqat zamanı diqqətdə saxlanılacaq **vəzifələri** göstərmək mümkündür:

-- Diaspor anlayışının və diaspor nəzəriyyəsinin mahiyyətini açıqlamaq və müəyyən etmək;

-- Azərbaycan diasporunun Amerika Birləşmiş Ştatlarında inkişaf mərhələlərini və bu müddətdə diaspora təsir edə bilən həqiqətləri göstərmək;

-- ABŞ-da soydaşlarımızın xüsusi maraq qrupları, sosial-siyasi institut kimi fəaliyyətini araşdırmaq və lobbiçi fəaliyyətlərini tədqiq etmək;

-- Amerikaya azərbaycanlıların miqrasiya tarixini və bunu doğuran səbəblərini aydınlaşdırmaq;

-- Amerika cəmiyyətində soydaşlarımızın öz etnik kimliyini, milli dəyərlərini, adət-ənənələrini inkişaf etdirmək və eyni zamanda qoruyub saxlamaq, diaspor təşkilatlarının və dinin rolunu öyrənmək;

-- ABŞ-da etnik lobbiçillərin təcrübəsini öyrənmək və lobbi nəzəriyyəsinin tarixi və müasir dövrünü də araşdırmaq;

--Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərini müəyyənləşdirərək, diaspor quruculuğu siyasətini təhlil etməklə dövlətin bu sahədə funksiyalarını da göstərmək;

-- Amerika Birləşmiş Ştatlarında Dağlıq Qarabağ münaqişəsinin ən yüksək dairələrə çatdırılması və təbliğatını araşdırmaq.

Tədqiqat metodları. Dissertasiya işində mövzu ilə bağlı siyasi və tarixi materialların araşdırılması və təhlili zamanı tarixi-xronoloji, analitik-tipoloji, ideya-bədii təhlil üsulu əsas götürülmüş, tarixilik və müasirlik, zaman və məkan prinsiplərinə əməl edilmişdir. Tədqiqat işində, həmçinin, müxtəlif elmi və siyasi dünyagörüşə malik müəlliflərin fikir və mülahizələrinə həmin tarixi dövrün kontekstində yanaşılmış, istinad olunan, nəzərdən keçirilən bu və ya digər materiallarda öz əksini tapan siyasi-ideoloji meyillər dəyərləndirilmiş, eyni zamanda, müxtəlif elmi mövqelər içərisindən obyektiv istiqamət tapılmasına, habelə yeni istiqamətin müəyyənləşməsinə çalışılmışdır. Hadisələrin analizi zamanı mövzu ilə bağlı Azərbaycan, rus, ingilis və türk dillərində olan kitablardan və mənbələrdən istifadə edilmiş, müxtəlif müəlliflərin fikirlərinə münasibət bildirilmiş və müəllifin öz fikirləri verilmişdir. Dissertasiya işi yazılarkən bütün bunlarla yanaşı problem-xronoloji metodundan da istifadə edilmişdir. Mövzu araşdırılarkən müxtəlif dillərdə (Azərbaycan, türk, rus, ingilis) olan ədəbiyyat və mənbələrdən istifadə edilən zaman onlara tənqidi yanaşmalar da olmuşdur. Hər fəslin sonunda ümumiləşdirmələr aparılmışdır.

Müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

• İkinci dünya müharibəsindən sonra ABŞ-da Azərbaycan diasporunun təşəkkülü prosesi Amerika Azərbaycan Cəmiyyətinin təsis edilməsi ilə təşkilati forma almışdır;

• 1991-ci ildə Azərbaycanın öz müstəqilliyini bərpa etməsi Amerikada yaşayan və müxtəlif sahələrdə fəaliyyət göstərən

soydaşlarımızın fəallığını artırmış və lobbiçilik fəaliyyətinə qoşulmasında mühüm hadisə olmuşdur;

• Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ilin noyabr ayı müddətində Bakıda Dünya Azərbaycanlılarının I qurultayının baş tutması, 2002-ci ildə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması, 21 fevral 2003-cü ildə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunun təsdiq olunması ABŞ-dakı Azərbaycan diasporunun fəaliyyətinin əsas hədəflərini və istiqamətlərini müəyyən etdi;

• ABŞ-dakı Azərbaycan diasporunun fəaliyyəti çoxşaxəli xarakter daşıyır, onun təşkilati qurumları Azərbaycan həqiqətlərinin ABŞ cəmiyyətinə və dövlət strukturlarına çatdırılmasında müxtəlif təbliğat vasitələrdən istifadə edir.

Tədqiqat işinin elmi yeniliyi. Araşdırılan elmi işin yerinə yetirilməsində bir neçə elmi yeniliklər də təsdiqlənir. Belə ki, Azərbaycanın tarix elmində indiyədək bu mövzu tarixi-elmi aspektdə kompleks şəkildə tədqiq edilmədiyindən, dissertasiya işində elmi yenilik kimi aşağıdakı dəqiq müddəalarda verilmişdir:

-- Amerika Birləşmiş Ştatlarında soydaşlarımızın məskunlaşma prosesi, ilk miqrasiya tarixi, orada Amerika cəmiyyətinə inteqrasiyanin tarixi dövrləri ilk dəfə tədqiq edilmişdir;

-- Bu sahədə mövcud problemlər ilk dəfə olaraq tarixi və milli dövlətçilik yanaşması baxımından öyrənilmiş, ABŞ-dakı Azərbaycan diasporunun sosial tərkibi müəyyənləşdirilmişdir;

-- Azərbaycan diasporunun digər diasporlar və daha dəqiq ABŞ-dakı əməkdaşlıq istiqamətləri və formaları araşdırılmışdır;

-- ABŞ ştatlarında sosioloji sorğu həyata keçirilmiş və ilk dəfə olaraq cavablar təhlil olunaraq dissertasiyada öz əksini tapmışdır;

-- Xarici siyasətdə diaspor məsələsi tarixi-siyasi aspektdən tədqiq olunmuşdur;

-- Amerikanın Dağlıq Qarabağ münaqişəsindəki mövqeyi, ona daha güclü təsiri ola bilən diaspor və lobbimizin fəaliyyəti tədqiq edilmiş və müxtəlif lazımlı təklif, tövsiyələr də verilmişdir;

-- 44 Günlük zəfər müharibəsi dövründə ABŞ-da yaşayan diasporun fəaliyyəti təhlil edilib.

Bu mövzu ilə əlaqadar Azərbaycan və Amerika materialları əsasında ilk dəfə olaraq elmi- tarixi baxımdan təhlil aparılmış, əldə olunan nəticələr əsasında xarici siyasət və dövlətçilik məsələlərində maraq doğuracaq müəyyən tövsiyələr də verilmişdir.

Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti. Dissertasiyanın əsasını təşkil edən fakt və məlumatları, əldə edilmiş nəticələri mühazirə və seminarların keçirilməsində, ümumiləşdirilmiş formada bir çox elmi və elmi-pedaqoji sahələrdə dəyərlənmək mümkündür. Bununla belə lobbiçilik fəaliyyətlərini təkmilləşdirmək məqsədilə dissertasiyada əks olunmuş müddəalardan yararlanaraq, müvafiq qurumlar və diaspor təşkilatları fəaliyyət strategiyalarını da hazırlamaq olar.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin əsas məzmunu bir sıra məqalələrdə, yerli və beynəlxalq konfrans materiallarında öz əksini tapmışdır. Dissertasiya AMEA Tarix İnstitunun "Azərbaycan diasporu" şöbəsində iki dəfə müzakirə olunmuşdur. Mövzu ilə bağlı Azərbaycan, Ukrayna və Britaniyada yeddi elmi məqalə və iki konfrans materialı çap olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycan diasporu" adlı şöbədə yerinə yetirilərək, tam təsdiqini tapdıqdan sonra şöbənin əməkdaşları tərəfindən müzakirə edilərək, müdafiə şurasına təqdim olunmuşdur.

Dissertasiyanın ümumi həcmi. Dissertasiya işi giriş, hər biri iki yarımfəsildən ibarət olan üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş: işarə sayı - 24.911, I fəsil: işarə sayı - 96.017; II fəsil: işarə sayı - 59.702; III fəsil: işarə sayı - 96.742 işarə, nəticə: işarə sayı - 11.924 ümumilikdə iş (ədəbiyyat siyahısı istisna olmaqla) 289.325 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi 161 səhifədir.

II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi araşdırılır, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəaları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir, aprobasiyası və tətbiqi nəzərdən keçirilir və işin yerinə yetirildiyi təşkilatın adı və dissertasiyanın həcmi göstərilir.

Dissertasiya işinin I fəsli **"Azərbaycanlıların ABŞ-a miqrasiya tarixi və diasporun təşkilatlanması"** adlanır və iki yarımfəsildən ibarətdir. I yarımfəsil **"Azərbaycanlıların ABŞ-a miqrasiyası və diasporun formalaşması tarixi"** adlanır, burada "azərbaycanlı", "tatar" anlayışlarına nəzər yetirilmiş, "diaspor", "lobbi", "miqrasiya", "mühacir" anlayışlarının mahiyyəti açıqlanmış, diasporun 3 modeli haqqında yanaşmalar araşdırılmış, azrbaycanlıların ABŞ-a miqrasiya etməsinin tarixi təhlil edilmişdir.

Bu yarımfəsildə qeyd edilir ki, "diaspor" sözünün yunanca "diaspora" sözündən götürüldüyü "Beynəlxalq mədəni əlaqələr" kitabında da göstərilir. Bu sözün hərfi mənası "dağılma, səpələnmə, yayılma" ki dərk olunur. "Azərbaycan Sovet Ensiklopediyası"nda isə bu anlayışın mənasını insan amilinə aid etmək lazım gəldikdə "Xalqın, etnik birliyin xeyli hissəsinin yaşadığı ölkədən xaricdə olması" kimi düşünülməsi qeyd edilir. Məna və məntiq etibarilə "diaspor" məfhumunun bu cür anlaşılmasını ən optimal variant hesab etmək mümkündür.[16] Müxtəlif ədəbiyyatlara və dövrü mətbuatların verdiyi məlumatlara əsaslanaraq qeyd etmək olar ki, diaspor sözünün izah etdiyimiz mənada cəmiyyətə nüfuz etməsinin tarixi çox qədimlərə söykənir.

Müəllif göstərir ki, Azərbaycan diasporuna isə maraqlı bir mədəniyyət forması kimi yox, əsas və ya aparıcı bir qurum kimi yanaşmaq lazımdır. Diaspor dedikdə onun üç əsas mərhələ əsasında fəailiyyəti göz önündə canlanır. Bunlardan birincisi və ən əsası

[16] Новрузова, Г.Т. Азербайджанская диаспора Российской Федерации: проблемы исторической демографии (1989-2002 гг): / диссертация доктора философии по историческим наукам/ -Баку, 2010. -176 с., s.42.

dünyəvi proseslərə təsir göstərən - dünyəvi diasporlardır ki, bura da yəhudi, çin, erməni diasporunu aid etmək olar. Sonra digər ölkələrdən Afrika, Asiyadakı hindlilər və dövlətlərin ikitərəfli münasibətlərində xüsusi rolları olan sərhədyanı azlıqları da daxil etmək olar. Bir maraqlı nününə kimi, Azərbaycan və Rusiyanın sərhədlərində yaşayan ləzgiləri, Almaniyada yaşayan danimarkalılar və Danimarkanın arasındakı sərhəddə məskunlaşan xalqları araşdırılan üç kateqoriyaya aid etmək olar ki, bunların əsasında onların birgə yaşam təsdiqini göstərmək olar.[17]

Azərbaycan diasporunun, dünyanın ən aparıcı, lider ölkələrindən birincisi kimi Amerika Birləşmiş Ştatları münasibətlərinə müxtəlif aspektlərdən yanaşmaq olar. Belə ki, ölkəmiz öz milli maraqları əsasında aparıcı qüvvələrə-potensiala malik olan diaspor icma və təşkilatları ilə eyni zamanda, inkişaf etmiş dövlətlərlə böyük prespektivli sazişlər bağlayır, əlaqələrini genişləndirir. Məhz ABŞ və Azərbaycan əlaqələri də bu kriteriyalara əsaslanaraq, diaspor münasibətləri dinamik inkişaf etdirir. Respublikamızın iyirmi ildən artıq müstəqillik dövründə öz xarici siyasət prioritetləri daxilində sırf Amerika ilə əməkdaşlıq mühüm yer tutmuşdur.

Aparılan araşdırmalara əsasən tam qətiyyətlə qeyd etmək olar ki, Amerika Birləşmiş Ştatlarının müxtəlif bölgələrində yaşayan azərbaycanlıların böyük bir qismi Cənubi Azərbaycandan (İrandan) miqrasiya olunmuş həmvətənlərimizdir. Ümumi şəkildə götürəndə Azərbaycan diasporunun böyük hissəsini məhz İrandan miqrasiya olunmuş azərbaycanlılar təşkil edir. (Onlar İranda baş verən müxtəlif siyasi proseslərlə bağlı ölkəni tərk etdiklərindən aralarında ciddi fikir ayrılıqları da yaranmağa başladı). Bu məskunlaşma ilkin olaraq, Turkiyədən 1970-ci ildən başladı və Azərbaycandan olan həmvətənlərimizin böyük əksəriyyəti də 1991-ci ildən bəzən qrup, ailə və bəzən də fərdi olaraq ABŞ-a yerləşdilər. Bu yerləşmənin

[17] Əliyev, Z.B. Dünya diasporları / Z.B. Əliyev. -Bakı: Qismət nəşriyyatı, -2005. -349 s., s.19.

nəticəsi isə bu ölkədə fəaliyyət göstərən diasporumuzun tərkibinə və sosial-iqtisadi fəaliyyətinə müxtəlif səpgili təsirini göstərə bildi.[18]

Azərbaycan diasporunun təşkilatlanması ikinci dünya müharibəsindən sonra bir çox seçilmiş ölkələrdə olduğu kimi, Amerika Birləşmiş Ştatlarında da sürətlə gücləndi və onun siyasi fəallıq dövrü geniş vüsət almağa başladı. Pərakəndə halda Cənubdan və Şimaldan, hətta Türkiyədən köçən azəbaycanlılar, bəlkə də, üzləşdikləri problemlərin ağırlığından, acınacaqlı həyat tərzlərindən siyasi fəaliyyətə böyük maraq göstərməyə başladılar. Bu səbəbdən də 1947-ci ildə Amerika Birləşmiş Ştatlara ilk dəfə olaraq Türkiyədən köç edən soydaşlarımızın "Azərbaycan" cəmiyyətini yaratması da çox mühüm tarixi hadisə idi. Bu hadisələrdən biri və bəlkə də, ən mühümü olan Nyu-York şəhərində yerləşən və Saleh bəy Şeyxzamanovun rəhbərliyi altında fəaliyyət göstərən "Azərbaycan" cəmiyyəti idi.[19]

Göstərilir ki, hal-hazırda Azərbaycan dövlət qurumları ABŞ-la ikitərəfli əlaqələrə xüsusi əhəmiyyət verir. Bərabərhüquqlu səviyyədə qurulan əlaqələr Azərbaycanın Qərb ölkələri ilə münasibətlərinin daha da genişləndirilməsinə xidmət edir. Bölgədə müəyyən iqtisadi maraqlarını gerçəkləşdirməyə çalışan ABŞ-la münasibətlər xarici investisiyaların cəlb edilməsi, dünya iqtisadiyyatına inteqrasiya, qlobal əhəmiyyətli regional layihələrin reallaşdırılması, ölkənin maliyyə gəlirlərinin artırılması və digər bu kimi hədəflərə yönələn Azərbaycanın mənafelərinə uyğundur.

Yarımfəslin sonunda ümumiləşdirmələr aparılmış və bir neçə nəticələrə gəlinmişdir.

Bu fəslin II yarımfəsli **"ABŞ-da Azərbaycan diaspor təşkilatlarının yaranması və fəaliyyəti"**nə həsr edilmişdir. Burada Azərbaycan-ABŞ münasibətlərinin yaranması tarixi nəzərdən keçirilmiş, ABŞ-da Azərbaycan diaspor təşkilatlarının yaranması,

[18] Hüseynov, İ. A. Azərbaycanın ABŞ-da tanıdılması: maraq qrupları və diaspor // -Bakı: Geostrategiya, -2016. №4, - s.40-43, s.41

[19] Azərbaycan diasporuna dövlət qayğısı: [4 cilddə] / red. N.Ibrahimov. -Bakı: Çaşıoğlu, -c.2. - 2006. - 212 s., s.65.

onların fəaliyyətinin əsas istiqamətləri, vəzifələri, göstərdikləri xidmətlər geniş şəkildə təhlil edilmişdir.

Müəllif göstərir ki, soydaşlarımızın Amerikaya və eləcə də digər ölkələrə miqrasiya prosesi isə dəqiq fakt və bir neçə vacib məsələlərlə əlaqəlidir. 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin siyasi hakimiyyətinin süqutu, 1941-1945-ci illərdə baş vermiş II Dünya müharibəsindən, İran islam inqilabından, SSRİ-nin çökməsindən və Azərbaycan Respublikasının öz müstəqilliyini (1991-ci ilin 18 oktyabr) bərpa etməsindən sonra da həmvətənlilərimizin digər inkişaf etmiş Avropa ölkələrinə, xüsusilə də ABŞ-a mühacirəti xeyli artmışdır.

Amerikada soydaşlarımızın yeni nəsillərinin məskunlaşması, Azərbaycan diasporunun formalaşmasının axırıncı qətiyyətli mərhələsi kimi qiymətləndirilir. Həmvətənlilərimizin sayı Amerika Birləşmiş Ştatlarında da 1 milyondan çoxluq təşkil edir ki, onların da əksər hissəsi məhz Amerikanın daha çox Mərkəzi, Şimali və Cənub hissəsində yerləşmişlər. Hazırkı dövrdə də xarici ölkələrdə yaşayan dünya azərbaycanlarının milli diaspor şəklində fəaliyyəti nəticəsində yaranan problemlərin birgə, səmərəli formada həlli üçün bir çox təşkilat və birliklər qurulmuşdur.

Araşdırmalara əsasən və rəsmi mənbələrə əsaslanaraq tam qətiyyətlə qeyd etmək olar ki, indiki dövrdə Avropada, Şimali və Cənubi Amerikada, MDB ərazisində və bir sıra ölkələrdə, həqiqətən Özbəkistan, Qırğızıstan, Norveç, Niderland, Almaniya, İspaniya, İtaliya, Belçika, Bolqarıstan, Çexiya, Finlandiya, Estoniya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası, Türkiyə və ABŞ-da 460-dan artıq Azərbaycan icmaları qurulmuşdur. Müasir Azərbaycan icma və birliklərinin təsis olunması ölkəmizin çağdaş diaspor quruculuğu prosesinin uğurları formasında dəyərləndirilməyə layiqdi. İldən-ilə bu say artır ki, buradakı xırda təşkilatların az saylı üzvlərini də nəzərə alsaq, bütün ölkələrdə yaşayan azərbaycanlıların öz saylarına uyğun təşkilatlanmaları məlum olur.

Diasporla iş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun təyin edilməsindən sonra ABŞ-da Azərbaycan diasporunun fəaliyyətində yeni dövrün başlanması kimi qeyd edə bilərik. Hazırda müxtəlif proqram və layihələrin həyata keçirilməsi, soydaşlarımızın

təşkilatlanması yönündə atılan addımlar birgə fəaliyyətə xidmət edir. Soydaşlarımızın koordinasiyanın təmin edilməsinin zəruriliyini, Azərbaycan Evlərinin fəaliyyətinin böyük əhəmiyyətə malik olduğunu xüsusilə qeyd etmək lazımdır ki, burada yaxın zamanlarda Azərbaycan Evinin yaradılmasının məqsədəuyğun ola bilər.

Azərbaycanın 44 günlük Zəfər müharibəsi dövründə Amerikada Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin koordinasiya formasında fəaliyyət göstərməsinin şahidi ola bilərik. Məsəl üçün Azərbaycan Mərkəzi tərəfindən təşkil olunan tədbirdə iştirak edən soydaşlarımız bu ölkədə dünya azərbaycanlılarının həmrəyliyi əks etdirilib, Amerika ictimaiyyətinin diqqəti işğalçı Ermənistan ordusunun Gəncə şəhərində törətdiyi terror aktlarına, mülki şəxslərin, xüsusilə azyaşlıların öldürülməsinə cəlb edilib.

Yarımfəslin sonunda ümumiləşdirmələr aparılmış və bir sıra nəticələrə gəlinmişdir.

Tədqiqat işinin iki yarımfəsildən ibarət olan II fəsli **"ABŞ-da etnik lobbizm, Azərbaycan lobbisinin formalaşması"** adlanır. II fəslin **"ABŞ-da Azərbaycan lobbisinin formalaşması"** adlı yarımfəsli lobbizm anlayışının mahiyyətinin açıqlanmasına, onun başlıca xüsusiyyətlərinin üzə çıxarılmasına, ABŞ-da Azərbaycan lobbisinin və lobbi təşkilatlarının yaranması tarixinin və onlarının fəaliyyətinin tədqiqinə həsr edilmişdir.

Bu yarımfəsildə qeyd edilir ki, lobbizm anlayışı, siyasi və həmçinin dövlətin iqtisadi prosesində önəmli hadisə olaraq elmi ədəbiyyatlarda qeyd olunub və ümumiləşdirilib. O, hər hansı prosesdə olan aktiv kəslərin maraqlarının nəzərdə tutulması üçün hökümət qurumlarına birbaşa, yaxud dolayı üsulla təsiretmə fəaliyyəti olaraq adlandırıla bilər. Bu cür olan zaman əldə edilən ümumi mahiyyətin dəqiqləşdirilməsi prosesi zərurəti yaranır. İlk olaraq, qurum deyilən zaman, dəqiq olaraq vəzifəli kəslər nəzərdə saxlanılır ki, burada hansısa qərarın qəbul edilməsi yaxud olunmaması onlardan asılı halda olacaqdır. Bu vəziyyətdə insanların sayı dəqiq hesab edilmir. Misal üçün, deputatlar qrupu, hökumət üzvü, yaxud administrasiyanın iri rütbəli şəxsi.

Müəllif qeyd edir ki, əksəriyyəti Azərbaycan lobbisi deyilən zaman ancaq, müstəqillikdən sonrakı müddəti başlıca götürürlər.

Hələ ötən dövrün əvvəllərindən tarixi aktlar və faktlar lobbimizin diqqət etməsinə xüsusi xidmət etdiyini qətiyyətlə söyləmək mümkündür. Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsindən sonra (1920-cü il), xarici dövlətlərə səpələnən soydaşlarımızın siyasi durumunu lobbi adlandırmaq mümkündür. 1922-ci ildə Əlimərdan bəy Topçubaşovun Genuya və London, 1923-cü ildə Lozanna konfrasında olan fəaliyyətinə uyğun formada M. Ə. Rəsulzadə, C. Hacıbəylinin, daha sonra "Azadlıq" radiosunda işləyən azərbaycanlıların siyasi durumunu lobbiçilik olaraq dəyərləndirmək mümkündür.[20] O müddət ərzində lobbiçilik qanunla tənzim edildi və lobbiçilik anlayışı elmi və hüquqi aktlarda qeyd olunmurdu.

Azərbaycan lobbisinin meydana gəlməsi, formalaşması, ilk olaraq, diasporun fəaliyyətindən asılı olandır. Avropanın, həmçinin dünyanın elə ölkələri var ki, orada fəailiyyətdə olan diaspor qurumları çox güclüdür. Onlar artıq həmin dövlətlərdə lobbi olaraq özünü təsdiqləyərək, Azərbaycanın milli dəyərlərini yüksək səviyyədə qorumaq və təmsil etmək bacarığına sahibdir. Ancaq elə dövlətlər də var ki, orada yaşayan həmvətənlər hələ heç diaspor durumunda birləşə bilmirlər. Əlbəttə, bu cür dövlətlərdə nəinki lobbiçiliyin təkmilləşməsindən, hətta diaspor olaraq mövcudluğundan bu cür söhbət ola bilməz.[21]

Azərbaycan lobbisinin fəaliyyəti eyni zamanda diasporlarımızın həyatında zəruri bir məqam olmalıdır və bu məsələ dövlət səviyyəsində həyata keçirilməlidir ki, bu istiqamətdə bir sıra addımların son dövrlərin hadisələri cərçivəsində baş verdiyini təsdiqləyə bilsin. 907-ci əlavənin qüvvədə olmasına baxmayaraq, 1993-cü ildən sonra keçən 3 il ərzində Azərbaycana maliyyə yardımı artmış və Qafqaz respublikalarına edilən humanitar yardımla bərabər səviyyəyə qaldırılmışdır. Qeyri-hökumət icmaları vasitəsilə ABŞ-ın ölkədə demokratiyanın inkişafı sahəsində işlərin aparılması üçün əvəzsiz yardımlar, yerli QHT-lərə qrantlar ayrılmışdır. "Eksson",

[20] Azərbaycan diaspor təşkilatları üçün sənədlər və məlumatlar toplusu / red.N.Ibrahimov. -Bakı: Şirvannəşr, -2008. -308. s., s.193.

[21] Niyazov, X. Dünya Azərbaycanlıları mütəşəkkil qüvvəyə cevrilir // Azərbaycan. -2006, 24 may. -s.6.

“Mobil”, “Amoko”, “Şevron”, “Yunokal”, “Penizoli” kimi şirkətlər Azərbaycan iqtisadiyyatına iri həcmdə uzunmüddətli investisiya qoymağa başlamışlar. Sənaye, kənd təsərrüfatı, rabitə, tibb və digər sahələrə investisiya qoyuluşu Azərbaycanın geosiyasi mövqeyini və iqtisadi vəziyyətini gücləndirir. Amerika kütləvi informasiya vasitələrində Azərbaycan lobbisinin fəaliyyəti tanınmış politoloqlar və şərhçilər tərəfindən müsbət qarşılandığını görmək olar.

Bu fəslin II yarımfəsli **“ABŞ-da Azərbaycan diaspor üzvləri və təşkilatları arasında sosial sorğu”** adlanır. Tədqiqat zamanı Azərbaycandan köçüb Amerikada yaşayan şəxslərin arasında problemin mahiyyətini öyrənmək üçün sosisoloji sorğu keçirmək qərarına gəlinmişdir. Sorğunun, əsasən, SSRİ-nin süqutundan sonra başlanan mühacirətə qoşulub ABŞ-da yaşayanlar arasında keçirilməsi nəzərdə tutulmuşdu. Belə ki, bu proses çərçivəsində hazırda ABŞ-da müxtəlif elm və təhsil müəssisələrində çalışan soydaşlarımıza aşağıdakı suallardan ibarət sosioloji sorğu göndərilmiş və 100 nəfər tərəfindən cavablandırılmışdır.

Qeyd edilir ki, ilk olaraq, ABŞ-da yaşayan azərbaycanlılar arasında sorğu keçirilmişdir. Bu sorğuda Kaliforniya, Meriland, Vaşinqton, Alabama, Pensilvaniya və digər ştatlarda və şəhərlərdə yaşayan azərbaycanlılar iştirak etdilər. Sorğunun ilkin forması olaraq hazır qeydiyyat formasından istifadə etmək qərarına gəlinmişdir. Qeyd edək ki, sorğu elektron poçt, facebook və odnoklassnik sosial şəbəkələri, skayp və elektron sorğu formasında aparılmışdır. Yarımfəslin sonunda respondentlərinin cavabları əsasında nəticələr çıxarılmışdır.

Dissertasiya işinin sonuncu fəsli **“ABŞ-Azərbaycan münasibətləri və Azərbaycan diasporu”** adlanır. Bu fəsil də iki yarımfəsildən ibarətdir. **“ABŞ-Azərbaycan münasibətlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi”** adlı I yarımfəsildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması tarixi, erməni təcavüzünün tarixi kökləri nəzərdən keçirilmiş, erməni lobbisinin yalanlara əsaslanan fəaliyyəti təhlil edilmiş, Dağlıq Qarabağ problemi Azərbaycan-ABŞ münasibətlərinin mühüm aspektlərindən biri kimi araşdırılmış, “907–ci düzəliş”in ABŞ-Azərbayca münasibətlərinə vurduğu zərərlər

göstərilmiş, ABŞ-dakı Azərbaycan disaspor təşkilatlarının bu istiqamətə fəaliyyəti tədqiq edilmişdir.

Müəllif göstərir ki, Azərbaycan-ABŞ münasibətlərinin mühüm aspektlərindən biri kimi son on illiyin ən aktual məsələsinin Dağlıq Qarabağ problemi olduğu da məlumdur. Belə ki, münaqişənin həlli prosesində Minsk qrupunun üzvü kimi ABŞ yaxından iştirak edirdi. Azərbaycan ABŞ-ın prosesdəki aktiv roluna daim ümid bəsləyir. Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından rəsmi Vaşinqtonun ATƏT-in Minsk qrupu həmsədri çox zaman Azərbaycan tərəfinin status-kvonun qəbuledilməz olması məsələsində tutduğu mövqeyə uyğun çıxış etmişdi O, beynəlxalq hüquq normaları çərçivəsində, bütün məsələləri açıq şəkildə sərgiləyərək münaqişənin həllinin vacibliyini vurğulamaqla, həm də qlobal və regional təhlükəsizliyin təmin edilməsini önəmli hesab etmişdi.

Lakin göstərilən cəhdlərə baxmayaraq ATƏT-in Minsk qrupunun fəaliyyəti tamamilə səmərəsiz olmuş, son illərdə, ümumiyyətlə, dalana dirənmişdir. Nəticədə, Ermənistanın törətdiyi təxribatlara cavab olaraq 2020-ci ilin 27 sentyabrında Ali baş komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan ordusu 44 günlük II Qarabağ müharibəsi nəticəsində tarixi qələbə əldə edərək işğal edilmiş torpaqlarının geri qaytarmağa müvəffəq olmuşdur. Müharibə dövründə ABŞ öz neytral mövqeyini qorumuş, tərəflər arasında atəşkəs əldə edilməsi istiqamətində fəaliyyət göstərmiş, atəşkəs haqqında razılığa gəlinsə də, Ermənistan az bir müddətdən sonra bu razılaşmanı pozmuş və bu razılaşma nəticəsiz qalmışdı. Post-konflikt dövründə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, münaqişə zonasının bərpa edilməsi, regionda kommunikasiya xətlərinin tamamilə açılması və Cənubi Qafqazda sülhün və təhlükəsizliyinin bərpa olunması yolunda dünyanın ən böyük dövlətlərindən olan ABŞ-ın iştirakı məqsədəuyğun olardı.

Sonuncu fəslin sonuncu yarımfəsli **"Azərbaycan Respublikasının diaspor siyasəti"** adlanır.

Yarımfəsildə qeyd edilir ki, Azərbaycan Dövlət Müstəqilliyinin 1991-ci il 18 oktyabrda bütün dünyaya elan edilməsi də xaricdə məskunlaşmış həmvətənlərimizin çox böyük sevincinə səbəb oldu. Azərbaycanın istiqlalı, Respublikanı dünyanın bərabərhüquqlu üzvü

etdi. Yenicə müstəqillik əldə edən dövlət, bütün xarici ölkələrdə fəailiyyət göstərən Azərbaycan diasporu ilə vacib əhəmiyyət daşıyan əlaqələr qurmaq istiqamətində ciddi addımlar atmağa başladı. Azərbaycan Respublikası müasir beynəlxalq münasibətlər sisteminin əsas tərkib hissəsi olaraq bu sistemdə mövcud siyasi dəyərləri qavramaqla müxtəlif istiqamətlərdə fəal işə qoşuldu. Xaricdə məskunlaşmış soydaşlarımızın problemləri, hüquqi müdafiəsi, təşkilatlanması barədə KİV orqanlarında dərc olunan məqalələr, kitablar, TV verilişlərin sayı çoxaldı. Xüsusən, Azərbaycan diasporuna dövlət və ictimai səviyyədə diqqət artdı. Azərbaycan diasporunun ali və elmi müəssisələrdə dərindən öyrənilməsi prosesi başlandı. Lobbiçilik anlayışı yarandı. Xaricdə yaşayan həmvətənlərimizin də Respublikada həyata keçirdiyi dövlət quruculuğu işlərində və digər iqtisadi və siyasi məsələlərdə də ölkə daxilində yaşayan Azərbaycanlılarla paralel olaraq yaxından iştirakı üçün zəmin yarandı. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Gününün elan edilməsi Heydər Əliyevin təşəbbüsü və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli qərarına əsasən qəbul edidi. Hər ilin 31 dekabrının dünyada yaşayan azərbaycanlıların həmrəyliyi kimi məqsədəuyğun qərarın təsdiqi isə Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasında dekabrın 26-da tamamlandı ki, bu da Dünya azərbaycanlıları ilə qurulan kövrək əlaqələr istiqamətində çöx mühüm addım oldu.

Müəllif göstərir ki, zamanla aparılan işlər öz bəhrəsini verirdi. Vətənə mütəmadi gəlməyə başlayan azərbaycanlılar ölkənin iqtisadi inkişafında rollarını artırmağa başladılar. Ali təhsil müəssisələrində oxuyan diaspor nümayəndələrimizin sayı artdı. Ölkə iqtisadiyyatına investisiya axını başlanmaqla, lobbiçilik strukturunu da xaricdə formalaşmağa başlandı.[22]

Məlumdur ki, bütün dünyada yaşayan azərbaycanlılarının ümummilli mənəvi birliyi və əsasən də həmrəyliyinin qorunmasının dövlətimiz tərəfindən yüksək rəğbətlə dəstəklənməsi ən ali məqsədlərindən biridir. Elə bu birliyi, həmrəyliyi yüksək

[22] Azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən və onlara kimliyini tanıdan milli ideologiyadır // Palitra. -2010, 29 dekabr. -s.5.

qiymətləndirən Ulu Öndərimiz Heydər Əliyev hər il 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması üçün lazımi sənədləri imzaladı. H.Əliyevin müstəqil Azərbaycan naminə attığı imzalardan ən önəmlisindən bir neçəsini qeyd etməklə, Ulu Öndərin Azərbaycan xalqına verdiyi əvəzsiz töhvələrin şahidi olmaq olar. Belə ki, Xaricdə Yaşayan Azərbaycanlılarla bağlı Dövlət Siyasəti haqqında Qanun, Diasporla İş Üzrə Dövlət Komitəsinin yaradılması məsələsi, Dünya Azərbaycanlılarının I, II, III Qurultayının keçirilməsi və bu kimi onlarla mühüm qərarların onun tərəfindən qəbul edilməsi, bir daha Heydər Əliyevin vətənə olan qayğısından irəli gəlirdi. Ulu Öndərin qəbul etdiyi qərarlar, eyni zamanda geniş imkanlara malik olan diasporumuzla hərtərəfli, faydalı, intensiv və ardıcıl əlaqələr yaratmaq yolunda çox mühüm addımlardan olmaqla, hər bir azərbaycanlıda da daha böyük amallar uğrunda mübarizə aparmaq, vətənimiz üçün lazımlı vətəndaş olmaq istəyi yaradırdı.[23]

Azərbaycan Prezidenti cənab İlham Əliyev diaspor fəailiyyəti ilə əlaqəli görüşlərdə hər bir zaman qeyd edir ki, yalnız güclü diaspor cəmiyyətlərinə sahib xalqlar xarici, eləcə də daxili siyasətdə mühüm uğurlar qazana bilir. Məlumdur ki, dünya miqyasında belə möhtəşəm qüdrətə sahib dövlətin təmsilçiləri də bütün kreteriyaları ilə ona layiq olmalı və öz dövlətinin mənafelərini hər zaman layiqincə qorumalıdır. Eyni zamanda ümummilli problemlərin layiqincə və vaxtında həllinə nail olmaqla, öz incəsənətini, dilini, tarixini və mədəniyyətini lazımi səviyyədə təbliğ edə bilməlidirlər. Hər vaxt, eləcə də bu gün, Azərbaycan dövlətinin diaspor siyasətinin həllini gözləyən əsas məsələlərindən biri də vətəndən kənarda məskunlaşmış milyonlarla həmvətənlərimizin vahid bir amal ətrafında birləşməklə formalaşmaları və Azərbaycan həqiqətlərinin təbliğ olunmasına çalışmalıdırlar.

Nəticədə tədqiqata yekun vurularaq ümumiləşdirmələr aparılmış, onların əsasında nəzəri və praktiki xarakterli təklif və

[23] Həbiboğlu, V. Heydər Əliyev və Azərbaycan diasporu / V. Həbiboğlu -Bakı: Qartal, -2001. -358 s., s.15.

tövsiyələr irəli sürülmüşdür. Eyni zamanda müəllif belə bir nəticəyə gəlmişdir ki:

- Ümumilikdə Azərbaycan diasporunun təşəkkülü, keçdiyi inkişaf yolu və çağdaş vəziyyəti ilə əlaqədar aparılan araşdırmalar göstərir ki, hazırda Azərbaycan diasporu bütün ölkələrdə, o cümlədən Amerika Birləşmiş Ştatlarında geniş şəkildə fəailiyyət göstərir. 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra pərakəndə şəkildə xarici ölkələrə səpələnmiş soydaşlarımızın gördüyü işlər haqlı olaraq Azərbaycan diasporu və lobbisinin yaranmasının bünövrəsi hesab edilir. 1920-ci ilin əvvəlində San-Remoda, 1922-ci ildə Genuya və Londonda Azərbaycanın milli-siyasi mənafeyini müdafiə etmək məqsədilə Lozanna elmi konfranslarında iştirak edən azərbaycanlılar lobbiçiliyin əsasını qoya bildilər. ABŞ-da Amerika Azərbaycan Cəmiyyətinin təsis edilməsi məsələsini isə 1956-cı ildə Azərbaycan Xalq Cumhuriyyəti dövründə əks-inqilabla mübarizə təşkilatının rəisi olmuş, əks-inqilabçı Nağı bəy Şeyxzamanlının oğlu Saleh bəy Şeyxzamanlı gündəmə gətirmişdir.

- Daha geniş anlamda Ermənistanın Azərbaycana qarşı törətdiyi vəhşiliklərin, Xocalı soyqırımı haqqında reallıqların dünya ölkələri tərəfindən rəsmi şəkildə tanınmasına nail olmaq Azərbaycan diasporlarının hər birinin birbaşa və təxirəsalınmaz vəzifələrindən biridir. Bu da danılmaz həqiqətdir ki, diaspor təşkilatlarının apardıqları fəaliyyətin nəticəsi kimi 2019-cu ildə ABŞ-ın Tennensi, Arkanzas, Nyu-Meksiko, Oklahoma, Pensilvaniya və digər ştatlarında keçirilən tədbirlərin hesabına Xocalı soyqırımı rəsmən tanınmışdır. Daha sonra ABŞ-da yaşayan azərbaycanlılar USAN və Prezident Barak Obama Administrasiyasının Azərbaycan ərazilərinin işğalını və Xocalı qətliamını, müharibə cinayətlərini, eləcə də faciə qurbanlarını tanıması məqsədilə Ağ evin rəsmi veb-səhifəsində petisiya yerləşdirə bildilər. “Xocalıya ədalət!” Xocalı soyqırımının 22-ci ildönümündə, Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın layihəsi və birbaşa təşəbbüsü ilə nüfuzlu ölkələrin iri şəhərlərində müxtəlif səpkili kampaniyalarını keçirildi.

- Bu təşkilatı işlərin yüksək səviyyədə təşkili və lazımi yerlərdə erməni lobbisinə qarşı ciddi mübarizənin aparılması bir daha göstərdi ki, Azərbaycan diasporları birlikdə daha mütəşəkkil qüvvəyə çevrilmişlər. Bütün bunlara baxmayaraq, Azərbaycan diasporunun azərbaycanlıların məruz qaldığı terror və soyqırımı aktları və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında yaratdıqları beynəlxalq təbliğat kampaniyalarının gördükləri işlər Dövlət başçısı tərəfindən qismən qənaətbəxş hesab edilsə də, onun da söylədiyi kimi, hələ görüləsi işlər qabaqdadır.

- Faktların araşdırılması nəticəsində aydın olmuşdur ki, nəinki uydurma "Erməni soyqırımı", "907-ci düzəliş", eləcə də Kipr, "kürd" məsələləri haqqında Azərbaycan diasporu ilə birlikdə türk diasporu da yeri gələndə öz etiraz səslərini ucaldaraq müxtəlif müraciətlər qəbul edirlər. Digər nəhəng ölkələr kimi, ABŞ-da da Azərbaycanı təbliğ edən sərgilər, konfranslar keçirilir, populyar qəzet və jurnallarda Azərbaycan həqiqətləri, Azərbaycan diasporu haqqında müsbət yazılara rast gəlmək olur. 20 Yanvar, Xocalı soyqırımını anma tədbirləri ilə yanaşı, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Novruz bayramı, 28 may İstiqlal Günü, və digər milli bayramlarımız da böyük canfəşanlıqla qeyd olunur. Hətta ABŞ-nın müxtəlif ali məktəblərində də tələbələr tərəfindən diaspor təşkilatlarında Azərbaycan həqiqətlərinin digər millətlərdən olan tələbələrə, eləcə də müəllim kollektivlərinə çatdırılması istiqamətində yüksək səviyyədə işlər görülməkdədir. Bütün bu proseslərin belə geniş vüsət almasına təsir edən amillərdən biri də 11 sentyabr 2001-ci il hadisələrində Azərbaycan diaspor təşkilatlarının amerikalılarla birgə olması idi. Artıq Azərbaycan diaspor təşkilatlarının mövqeyinin Amerika siyasi və rəsmi dairələrində dəstəklənməsi çox geniş surətdə müşahidə olunur. Azərbaycanın bütün hallarda haqlı olması barədə müsbət fikirlər, öz dövründə Amerikaya tez-tez rəsmi görüşlərə gedən Ulu Öndər Heydər Əliyevin, sonra isə Azərbaycan Prezidenti İlham Əliyevin apardıqları uzaqgörən siyasətin nəticəsi idi. Belə görüşlərin əsas məqsədlərindən biri də Dağlıq Qarabağ məsələsi idi ki, bütün yığıncaqlarda Azərbaycan diasporunun bu istiqamətdə gördükləri işlərə lazım gələndə məsləhətlər də verilirdi.

- Dissertasiya işində göstərilən müsbət məqamlar tam qənaətə gəlməyə imkan verməməlidir ki, ABŞ-dakı Azərbaycan diasporunda heç bir problem yoxdur və hər şey öz qaydasında inkişafdadır. Həqiqətən də, bu məsələdə problemlər və nöqsanlar da çoxdur. Diaspor fəaliyyəti elə dinamik bir işdir ki, əvvəllər bu sahədə olan zəif fəaliyyət həmin problem və nöqsanları aradan qaldırmağa o qədər da nail ola bilmirdi. Ancaq zaman keçdikcə, diaspor siyasəti gücləndikcə həmin məsələləri vaxtında, adekvat həll etmək üçün yetərli imkanlar olmur, yaxud da mövcud imkanlarımız buna kifayət etmir. Ona görə maksimum dərəcədə çalışmalıyıq ki, ehtiyat mənbələrindən, əlimizdə olan imkanlardan səmərəli istifadə edək, daha çox cəmiyyətimizin diaspor siyasətinə meyilli olan şəxslərini bu prosesə qoşa bilək. Yalnız bu halda bizim diaspor siyasətimiz daha böyük uğurlar qazanacaq. Yəni hazırkı durumda Azərbaycanda fəailiyyətdə olan qeyri-hökumət təşkilatları, bir sıra siyasi partiyalar diaspor siyasətinə olan maraq və diqqətini daha da artırmalıdır. Azərbaycan digər ölkələr kimi deyil ki, yalnız daxili problemlərin həllini qabartsın və yalnız bu işlə məşğul olsun. Azərbaycanın bu gün həllini gözləyən ən böyük vəzifəsi Dağlıq Qarabağ problemidir ki, buna da Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı qeyri-hökumət təşkilatları, dövlət qurumları, bütün ictimai-siyasi təşkilatlar, eləcə də diaspor təşkilatları öz fəaliyyətində ayrıca bir bənd olaraq yanaşmalı və bu istiqamətdə fəaliyyət göstərməlidirlər. Yalnız o halda diaspor yönündə fəaliyyətimiz daha böyük, kütləvi xarakter daşıyacaq.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. ABŞ-da Lobbizm təcrübəsi və Azərbaycan lobbisi // -Bakı: Avrasiya Universiteti, Sivilizasiya,- 2014.- s.113-118.
2. Azərbaycançılıq ideologiyası Avrasiyaçılıq və Multukulturalizm kontekstində // Qafqaz Universiteti, Gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransı,-Bakı: -2016. №2,- s.1665-1667.
3. ABŞ-a Azərbaycanlıların mühacirəti və diasporun formalaşdırılması // -Bakı: "Turizm və qonaqpərvərlik tədiqaqatları" beynəlxalq jurnal,- 2016.- s.170-182.

4. "Azadlığa Dəstək" Aktı və Azərbaycan-ABŞ münasibətləri // -Bakı:“Gənc tədqiqatçı” jurnalı,-2017. III Cild, №1,- s.220-223.

5. Azərbaycanın ABŞ-da tanıdılması: maraq qrupları və diaspor //- Bakı:“Geostrategiya” jurnalı,-2016. №5 (35),- s.40-43.

6. Heydər Əliyev: Azərbaycançılıq ideologiyası və Azərbaycan diasporunun fəaliyyəti // -Bakı: “Dövlət idarəçiliyi” jurnalı - Nəzəriyyə və təcrübə,-2016. №3 (59),- s.265-274.

7. Современный этап и перспективы азербайджано-американских отношений // -Киев: "Гилея: научный вестник, випуск,-2018.132 (№5),- с.123-126.

8. Müasir dövrdə Azərbaycan və türk diaspor təşkilatlarının birgə fəalliyyəti // Bakı Dövlət Universiteti, “Dünya azərbaycanlıları: tarix və müasirlik” mövzusunda Gənc tədqiqatçıların III Beynəlxalq elmi konfransı,- Bakı:- 2018.- s. 57-58.

9. Activities of the Azerbaijan diaspora in Turkey // -London: Conflict and peace in international Politics: İssues, Actors, Approaches, İJOPEC Publication, - 2020, №1.- s.145-154.

Dissertasiyanın müdafiəsi 04 mart 2022-ci il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.30 saylı Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:Az.1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 02 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.01.2022
Kağızın formatı: A5
Həcm: 50.852
Tiraj: 100